2026. Volume 10, Number 1 *Pages 40-48*

UOT: 811.512.1'02:930.2
DOI: https://doi.org/10.30546/09081.2026.1.1016

QƏDİM UYĞUR ABİDƏLƏRİNİN OXUNMASI VƏ NƏŞRİNDƏ YAPON TƏDQİQATÇILARIN ROLU

fil.ü.f.d., dos. Aysel ƏHMƏDOVA[1]

[1]*Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan*

aysel901120@gmail.com

BAKI, AZƏRBAYCAN

Məqalə haqqında məlumat

Məqalənin tarixçəsi:
Daxil olub: 2025-05-18
Təkrar işlənmiş formada daxil olub: 2025-06-20
Qəbul edilib:2025-07-21
Onlayn əlçatandır:2026-06-19

Açar sözlər:
qədim türk yazılı abidələri; Yaponiya; buddizm; əlyazmalar; qədim uyğur əlifbası

Xülasə

Yaponiyada türkoloji tədqiqatların ən geniş yayılmış istiqaməti qədim uyğur abidələrinin öyrənilməsidir. Bu sahədə fəaliyyət göstərən tədqiqatçılar abidələrin nəşri ilə də məşğul olmuşlar. Cuten Oda "Səkiz yükmək" adlı qədim uyğur abidəsini və onun fraqmentlərini müxtəlif illərdə çap etdirmişdir. Takao Moriyasunun nəşr etdirdiyi qədim uyğur məktubu Dunhuanda yaşayan qədim uyğurlar arasında buddizmin yayılması ilə yanaşı, "Manjuşri-nama-samgiti" adlı əsərin qədim uyğur dilinə tərcüməsi haqqında məlumat verir. Masahiro Şoqaito qədim uyğur əlifbası ilə Çin dilində yazılmış mətnləri nəşr etdirmiş və onların orfoqrafik xüsusiyyətlərindən çıxış edərək qədim uyğurlarda Çin sözlərinin tələffüzünü müəyyənləşdirmişdir. Dai Matsui İstanbulda saxlanan 7 qədim uyğur sənədindən birini çap etdirmiş və onun növünü müəyyənləşdirməyə çalışmışdır. Yaponiya tədqiqatçıları Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Serindiya kolleksiyasındakı qədim uyğur əlyazmalarının kataloqunun hazırlanması və nəşr edilməsi işində iştirak etmişlər. Koiçi Kitsudo və Piter Zime orijinalı Çin dilində olan bir qədim uyğur abidəsini tədqiq və nəşr etmişlər.

2521-6333/© 2026 The Author(s). Published by Baku Engineering University.
This is an open access article under the CC BY 4.0 license (http://creativecommons.org/licenses/by/4.0/).

1. Giriş

Yapon türkoloqlarının ən çox məşğul olduqları sahələrdən biri qədim uyğur yazılı abidələridir. Qədim uyğur abidələrinin bir hissəsinin Kiotoda Ryukoku Universiteti kitabxanasında saxlanması abidələrin tapıldığı ərazinin Yaponiyaya daha yaxın olması, Yaponiyada buddizmin geniş yayılması və qədim uyğur abidələrinin əksəriyyətinin buddizm məzmunlu olması, qədim uyğur mətnlərinin çoxunun Çin dilindən tərcümələrdən ibarət olması və yaponlar arasında Çin dilini bilənlərin çoxluğu (bu həm iki ölkənin ərazi yaxınlığı, həm də yaponların Çin heroqliflərindən istifadə etməsinin təsiridir) onların qədim uyğur abidələri ilə məşğul olmasına şərait yaratmışdır.

Yaponiyaya qədim uyğur abidələrinin fraqmentlərini XX əsrin əvvəllərində Kozui Otani gətirmişdir. O, Avropada təhsil almış, daha sonra Nişi Honqanci buddist məbədinin abbatı olmuşdur. Onu Turfanda yayılmış abidələri əldə etməyə yönəldən Avropada Aurel Steynlə tanış olması və onun həmin abidələri toplamaq üçün etdiyi səfərlər haqqında məlumat alması olmuşdur (Kudara, 1999: 333-337). Onun topladığı fraqmentlər hazırda Kiotoda, Ryukoku Universiteti-

nin kitabxanasında saxlanılır. Həmin kitabxanada 10 min qədim uyğur fraqmentinin olduğu göstərilir. Bunların təxminən yarısı buddist, qalanlar isə manixey və nestorian mətnləridir (Kudara, 1999: 338-339).

2. Cuten Odanın tədqiqatları və "Səkiz yükmək"

Yapon alimi Cuten Odanın əsas tədqiqatları qədim uyğur abidələrindən olan "Səkiz yükmək"ə həsr olunmuşdur. Çin dilindən tərcümə olunmuş bu abidə apokrif sutra, yəni sanskritcə əsli olmayan, birbaşa çincə yazılmış sutradır.

C.Oda "Səkiz yükmək yaruk"u 2010-cu ildə yapon dilində çap etdirmişdir. Bu kitab 2015-ci ildə ingiliscə nəşr olunmuşdur. Yaponca nəşrdə fotofaksimilelər də var idi, ancaq ingilis dilində nəşrdə onlar çıxarılmışdır (Uçar, 2017: 245).

Bu əsər müxtəlif adlarla təqdim olunmuşdur. Adətən "Səkiz yükmək" adı ilə tanınan əsərin Çin dilindəki adı qədim uyğur dilindəki iki versiyada müxtəlif şəkildə tərcümə olunmuşdur:

1. *T(e)ŋri burxan y(a)rlıkamış t(e)ŋrili yerli sekiz yükmek y(a)ruk bügülüg arvış nom bitig*;

2. *T(e)ŋri t(e)ŋrisi burxan y(a)rlıkamış t(e)ŋrili yerlite sekiz törlügin yarumış yaltrımış ıduk darni tana yip atl(ı)ğ sudur nom bitig* (Uçar, 2017: 246).

Müxtəlif adlandırmalardan çıxış edən C.Oda bu qənaətə gəlir ki, əsərin qədim uyğur dilinə tərcüməsinin 2 əsas versiyası olmuşdur: əsl tərcümə və əsl tərcümə əsasında dəyişdirilmiş mətn (Uçar, 2017: 246). Eyni əsərin müxtəlif tərcümələrinin olması və bu tərcümələrə müxtəlif adlar verilməsi qədim uyğurlar arasında yayılmış hadisədir.

C.Oda kitabı hazırlayanda 2 əsas cəhətə diqqət yetirmişdir:

1. Çin dilindəki mətnin qədim uyğur dilində tərcüməsinə aid parçalardan əsas mətn əmələ gətirmək;

2. Qədim uyğur dilinə tərcüməni, Çin dilindəki orijinalı, monqol və Tibet dillərinə tərcümələri bir-biri ilə müqayisə etmək (Uçar, 2017: 246). Deməli, burada əsərin tənqidi mətni verilmişdir. Xüsusən orijinalı ilə müqayisə onun daha yaxşı bərpa olunmasına və anlaşılmasına kömək edir.

C.Oda əsərin müxtəlif əlyazma nüsxələrini müəyyənləşdirmişdir. London (Dunhuan) və Kioto (Turfan) əlyazmaları daha bitkin xarakter daşıyır. Bunlarla yanaşı Berlin, Kioto, Tokio, London, Paris, Sankt-Peterburq və Çində saxlanan taxta çap mətnləri və əlyazma fraqmentləri də var (Uçar, 2017: 247). C.Odanın fikrincə, çoxsaylı fraqmentlərin mövcudluğu əsərin qədim uyğurlar arasında geniş yayıldığını göstərir (Uçar, 2017: 246). Əsərə türk mənşəli adın verilməsi, onun bir neçə müxtəlif tərcüməsinin olması da bu fikri təsdiqləyir. Digər tərəfdən, daha çox insan əsəri oxumaq istədiyi üçün, onun müxtəlif nüsxələri hazırlanmışdır.

C.Oda tərcümənin 4 mərhələsi olduğu fikrindədir və bu mərhələlər nəşrdə də öz əksini tapmışdır. Bu cür nəşr üsulu yeni hesab olunur (Uçar, 2017: 247). Kitabda əsərin dili haqqında da məlumat verilir. Göstərilir ki, daha əvvəlki dövrə aid olan London əlyazmasında *n* dialektinin xüsusiyyətləri özünü göstərir (Uçar, 2017: 247). Kitabda *ñ* samiti *ng* kimi yazılmışdır. E.Uçar bunu yapon uyğurşünaslarının nəşrləri üçün səciyyəvi xüsusiyyətlərdən hesab edir (Uçar, 2017: 249). Lakin bu xüsusiyyət yalnız yaponlarda deyil, digər ölkələrin tədqiqatçıları arasında da özünü göstərir.

Bir çox qədim uyğur abidəsi kimi ("Altun yaruk", "Süan Tsanın bioqrafiyası" və s.), bu əsər də Beşbalıklı Şingko Şeli Tutunq tərəfindən tərcümə olunmuşdur (Uçar, 2017: 249). Şingko Şeli

Tutunq qədim uyğurların ən məşhur tərcüməçisi olmuşdur. Çin dilindən edilmiş bir çox tərcümə onun adı ilə bağlıdır.

Beləliklə, C.Odanın kitabı qədim uyğur abidələrindən birini hərtərəfli tədqiq edən əsər kimi diqqətəlayiqdir.

Cutan Odanın "Səkiz yükmək" abidəsinə aid müxtəlif məqalələri də var. Bu məqalələrdə o, qədim uyğur yazılı abidələrinin çap variantları haqqında məlumatları aşkarlamağın əhəmiyyətini vurğulayır: "Bu mətnlərin nə vaxt və harada çap olunması və nəşr olunması problemini öyrənmək yalnız bəzi uyğur buddist mühitlərini tapmaq üçün yox, həm də mədəniyyət tarixində onların linqvistik və orfoqrafik əlamətlərini bərpa etmək üçün əhəmiyyətlidir" (Oda, 2012: 325).

C.Oda "Səkiz yükmək"in böyükhəcmli nüsxələri ilə yanaşı, Ryukoku Universitetində saxlanan bəzi kiçik fraqmentlərini də müəyyənləşdirmiş və onların transkripsiyasını vermişdir (Oda, 2012: 352). O qeyd edir ki, bu fraqmentlərin başlığı əsas nüsxələrdəkindən fərqlənir: "Səkiz törlügin yarumış yaltrımış nom bitig". C.Oda bu əsərin fraqmentlərinin ümumilikdə 2 kitabdan ibarət olduğunu göstərmişdir. Bunlardan biri Berlin, Kioto, Sankt-Peterburq və Pekin fraqmentlərindən ibarətdir. Digəri isə yalnız Berlin fraqmentlərindən ibarətdir. Bunların hər biri "qatlama kitab" adlandırıla bilər, çünki müxtəlif vərəqlərin bir-birinə yapışdırılması və qatlanmasından ibarətdir. O, birinci kitabı A kitabı adlandırır. Bu kitab 24 vərəqdir və hər vərəqdə 7 səhifə var. Burada taxta blokları hazırlayan şəxsin adı verilmişdir: Çen Ninq (Oda, 2012: 326). C.Oda bu ada əsaslanaraq nüsxənin yazılma tarixini müəyyənləşdirir. Çen Ninq adını 1232-1332-ci illərdə çap olunmuş Çin buddist kanonlarında görmək olar. Ona görə də demək olar ki, bu kitab XIII əsrin sonu – XIV əsrin əvvəllərində Cənub-şərqi Çində çap olunmuşdur. B kitabı isə təxminən 35 səhifədən ibarətdir, hər vərəqdə 4 səhifə var (Oda, 2012: 327).

"Səkiz yükmək"in fraqmentlərinin nəşr edildiyi məqalədəki məlumatlar müəllifin tədqiq etdiyi əsərə diqqətli və hərtərəfli yanaşmasını bir daha təsdiq edir.

3. Takao Moriyasu və qədim uyğur buddistinin məktubu

Şinasi Tekin 1980-ci ildə "Buddhistische Uigurica aus der Yüan-Zeit" adlı əsərində Dunhuandan tapılmış 2 uyğur əlyazma kitabını təhlil etmişdir. Bunlardan biri Or.8212-108 nömrəsi altında Britaniya Kitabxanasının Steyn kolleksiyasında, digəri isə P.4521 nömrəsi altında Fransa Milli Kitabxanasının Pelyo kolleksiyasında saxlanılır (Moriyasu, 1982: 1). Takao Moriyasu bunlardan ikincisini tədqiqata cəlb etmişdir.

Əlyazmaların tarixləndirilməsi ilə bağlı Takao Moriyasu yazır: "Hər iki kitab Dunhuanın XI əsrin birinci yarısında bağlanmış məşhur mağarasından (No.17=Pelliot No.163) gətirilmiş olsa da, şübhəsiz, onlar burada saxlanan digər əlyazmaların da əksəriyyəti kimi, həmin əsrdən əvvələ yox, dəqiq olaraq Monqol dövrünə, yaxud Yuan sülaləsi mərhələsinə (XIII-XIV əsrlər) aiddir" (Moriyasu, 1982: 1). Adətən həmin mağara XI əsrdə bağlandığı üçün oradan tapılan əlyazmalar məhz həmin dövrdən əvvələ aid edilir. Lakin bu iki əlyazmanın forma və məzmun xüsusiyyətlərindən çıxış edən tədqiqatçı onları bir neçə yüz il sonraya aid etmişdir.

Ş.Tekinə görə, P.4521 mətni üç hissəyə bölünür. İlk iki hissə "Mahaprajnaparamita sutra" adlı əsərdən iki bodhisattva (Sadaprarudita və Dharmodqata) haqqında olan hekayələrin uyğur versiyasıdır. I hissə 4 misralı alliterasiyalı şeirlə yazılmış uzun mətndir. T.Moriyasu mətnin sonrakı hissəsinin məktub olduğunu göstərir (Moriyasu, 1982: 2). Bunun üçün o bir neçə cəhətə diqqət yetirir. Birincisi, uyğur məktublarının əvvəlində məktubun yazıldığı şəxsin səhhətinin

soruşulmasıdır ki, bu əlyazmada da həmin xüsusiyyət özünü göstərir (Moriyasu, 1982: 4). İkincisi, məktubda çəkilən adların monqol Yuan sülaləsinin hakimiyyətində hakimiyyəti dövründə işlənən qədim uyğur adlarına bənzəməsidir (Moriyasu, 1982: 5). T.Moriyasu göstərir ki, "Əşyaların yolda oğurlanması və itməsi qorxusundan, məktubda onların sayını və içindəkiləri qeyd etmək adəti vardı. Buna görə də məktubun sonuna "Onları yoxla və al sözləri yazılırdı": *körüp alğıl* (Moriyasu, 1982: 6).

T.Moriyasu qədim uyğurlarda məktubların yazılma sxemini müəyyənləşdirmiş və tədqiq etdiyi əlyazmanı həmin sxemlə tutuşdurmuşdur:

1. Məktubu alanın və göndərənin adı (yoxdur);

2. Məktubu alanın səhhətini soruşmaq üçün salamlama (yoxdur);

3. Məktubu göndərənin sağlamlığı barədə məlumat (11.2-3);

4. Mesaj 1 (11.4-7) ... Yeni əsər haqqında;

5. Mesaj 2 (11.8-11) – Saçuda olan Yoqayın işinin gedişi barədə məktub alandan məlumat istəmək;

6. Mesaj 3 (11.11-12) – Kulı Tuya aid atlar (və ya əşyalar) barədə məlumat;

7. Mesaj 4 (11.12-14) – Hazırda məktubu alanın əlində olan sutraların məktubu göndərənə qaytarılması barədə xahiş;

8. Mesaj 5 (11.14-15) – Məktubu alana məsləhət;

9. Mesaj 6 (11.15-17) – Məktubu alandan Alp Kayaya mesajı çatdırması üçün xahiş;

10. Mesaj 7 (11.17-21) – Məktubu alana çatacaq bütün sutraların adlarının siyahısı və onların alınmasının təsdiqlənməsi barədə xahiş;

11. Qalanlar (11.22-dən aşağıdakı hissə) aydın deyil (Moriyasu, 1982: 7).

T.Moriyasu məktubda adı çəkilən Saçu adlı ərazinin Dunhuanda olduğunu müəyyənləşdirir (Moriyasu, 1982: 7) və buradan çıxış edərək Saçuda yaşayan uyğurlar haqqında danışır: "Yuxarıdakı materiallara əsasən, güman edə bilərik ki, XIV əsrin ortalarından başlayaraq He-hsi-nin müxtəlif yerlərində uyğur koloniyaları (icmaları) olmuş və uyğur dili orada yaşayan müxtəlif xalqlar arasında ortaq dil olmuşdur" Uyğurlar "çinlilər, monqollar, tanqutlar (və tibetlilərlə) birlikdə He-hsi-nin əhalisinin vacib elementini təşkil etmişlər" (Moriyasu, 1982: 15).

Məqalədə məktubun bütöv mətni də verilmişdir. Mətnin məzmunundan anlaşılır ki, burada Antsanq baxşı tərəfindən tərcümə olunmuş "Namasamgiti" adlı əsərdən danışılır (Moriyasu, 1982: 8). Bu şəxs Möngkə xan və Xubilay xanın dövründə imperator sarayında xidmət etmişdir (Moriyasu, 1982: 8-9). "Namasamgiti" dedikdə, "Manjuşri-nama-samgiti" adlı mətnin qədim uyğur dilinə tərcüməsi nəzərdə tutulur. Əsər qədim uyğur dilinə 1302-ci ildə Ssu-tu Karunadaz tərəfindən tərcümə edilmişdir (Moriyasu, 1982: 12). Məktubun yazıldığı vaxtı müəyyənləşdirmək üçün T.Moriyasu məhz bu tarixi əsas götürmüş və məktubun 1302-ci ildən sonra yazıldığı qənaətinə gəlmişdir.

Bu məqalədə nəşr olunan məktubun və aparılan tədqiqatın yalnız qədim uyğur abidələrinin yox, həm də buddizmin və Dunhuandakı buddizm məzmunlu əsərlərin öyrənilməsi üçün əhəmiyyəti böyükdür. Belə ki, məktubun məzmunundan dəqiq anlaşıldığı kimi, o, məhz XIV

əsrdə yazılmışdır. Halbuki bir çox tədqiqatlarda Dunhuandakı Min Budda mağaralarında və xüsusilə də məktubun tapıldığı mağarada olan əlyazmalar XI əsrdən əvvələ aid edilir, çünki həmin mağara bu tarixdə bağlamışdır. Bu məktubun daha sonrakı dövrə aid edilməsi isə göstərir ki, həmin mağaradan tapılmış və ya oraya aid edilən əlyazmalar və fraqmentlərin heç də hamısı XI əsrdən əvvələ aid deyil. Onlar ya həmin mağaradan yox, onun yaxınlığındakı digər yerlərdən tapılmış, ya da həmin mağara bağlandığı dövrdən müəyyən müddət sonra yenidən açılmışdır.

4. Qədim uyğur yazısı ilə yazılmış çindilli mətnlərin Masahiro Şoqaito tərəfindən nəşri

Qədim uyğur yazısı ilə Çin dilində mətnlər də yazılmışdır. Masahiro Şoqaito göstərir ki, Rusiya Elmlər Akademiyası Şərq Əlyazmaları İnstitutunda 12 fraqmentin Çin dilindəki mətni uyğur yazısı ilə yazılmışdır. Buraya "Manjusri-nama-samgiti" adlı mətnin 2 fraqmenti də daxildir (Shōgaito, 2012: 376). "Manjusri-nama-samgiti" qədim uyğurlar arasında da geniş yayılmış və tərcümə olunmuş bir əsərdir.

Maraqlıdır ki, M.Şoqaitonun tapdığı fraqmentlər "Manjusri-nama-samgiti"nin indiyə kimi məlum olan Çin versiyasına yox, başqa bir versiyaya aiddir (Shōgaito, 2012: 376). M.Şoqaito əsərin Çin dilinə Yüan sülaləsi dövründə tərcümə olunmasına əsaslanaraq, bu mətnin uyğur əlifbası ilə yazılmış variantının da bu dövrdən əvvələ aid ola bilməyəcəyini müəyyənləşdirir (Shōgaito, 2012: 375). Əsərin qədim uyğur tərcüməsi də məhz bu dövrə – XIV əsrin əvvəllərinə aiddir.

M.Şoqaito nəzərdən keçirdiyi fraqmentlərin yazıldığı dövrü müəyyənləşdirəndə qarşısına belə bir çətinlik çıxır: "Manjusrinamasamgiti"nin, həm də uyğur əlifbası ilə yazılmış digər Çin mətnlərinin fonoloji quruluşu Yuan dövründəki Çin dilindənsə, son Tanq və ya Beş sülalə dövrünün şimal-qərb dialektinə bənzəyir (Shōgaito, 2012: 375). Bu da M.Şoqaitonu uyğur rahiblərinin Çin mətnlərini dövrün ədəbi dilindən fərqli şəkildə yazıya köçürdükləri qənaətinə gətirib çıxarır. Tədqiqatçı bu sistemi IUPC – Inherited Uighur Pronounciation of Chinese (Çin dilinin ənənəvi uyğur tələffüzü) adlandırır (Shōgaito, 2012: 375). Başqa sözlə, qədim uyğurlarda Çin mətnlərini transkripsiya etmək və yazıya köçürmək üçün əvvəlki dövrlərdən etibarən xüsusi sistem olmuş və bu sistem irsən sonrakı dövrlərə də keçmişdir

M.Şoqaito bu fraqmentlər əsasında IUPC adlandırdığı sistemi də təsvir edir. Məsələn, bu sistemdə /š/ *ş* və /ž/ *j* səslərinin hər ikisi *s* və ya *s'* kimi, /*i*/ və /*e*/ isə eyni bir *y* hərfi ilə yazılmışdır. O, 2 ehtimal üzərində durur. Birincisi, bu səslərin elə bir cür də oxunmuş olmasıdır. Burada ikinci bir ehtimal da var: "Lakin başqa bir ehtimal da mümkündür, daha dəqiq desək, bu işarələri yazanlar IUPC-dəki bu xırda fərqləri başa düşmüş, lakin oxşar səsləri ifadə etmək üçün bu hərflərdən istifadə etmişlər" (Shōgaito, 2012: 380). Əslində, qədim uyğur dilində də bu səslər bir-birindən fərqlənmiş, lakin yazıda adətən eyni hərflə qeyd olunmuşdur. Başqa sözlə, bunu yalnız qədim uyğurların Çin dilindəki mətnləri yazmasına yox, məhz qədim uyğur yazısının özünə aid etmək lazımdır. Bunun da əsas səbəbi qədim uyğur əlifbasının soqd əlifbası əsasında yaradılması, yəni qədim uyğur səs sisteminə də tam uyğun olmamasıdır.

5. Dai Matsui və İstanbulda saxlanılan qədim bir uyğur sənədi

İstanbul Universiteti Mərkəz Kitabxanasında qədim uyğur mətnləri kolleksiyası var ki, Şərqi Türkistandan, çox ehtimal ki, Turfan hövzəsindən gətirilmişdir. Bu kolleksiya Berlin, Sankt-Peterburq, London, Kioto və Çin kolleksiyası ilə müqayisədə çox kiçikdir. Uyğur kolleksiyasına 7 dünyəvi sənəd daxildir. Onların 5-i müqavilələrdir. Rəşid Rəhməti Arat və Nobuo Yamada tərəfindən çap olunmuş, sonra Hiroşi Umemura tərəfindən düzəliş edilmiş və çap olunmuşdur.

Sənədlərdən biri şərab çatdırılması haqqında inzibati sifarişdir, N.Yamada tərəfindən çap olunmuş, Dai Matsui tərəfindən düzəliş edilmişdir. (Matsui 2007: 61). Nəşr olunmamış kiçik fraqment isə D.Matsuinin bir məqaləsində verilmişdir. Bu fraqment İ.Ü.Küt. Demirbaş No. 533 adı altında saxlanılır (Matsui 2007: 62).

D.Matsui bu sənədin yazıldığı dövrü müəyyənləşdirməyə çalışmış və onu monqol dövrünə (XIII-XIV əsrlər) aid etmişdir. Bunun üçün o, aşağıdakı meyarlara əsaslanmışdır: sürətli kursiv yazı ilə yazılması, *nişan* "imza" sözünün işlənməsi, monqol dilindən alınmış *yosun* "qanun, qayda" sözünün işlənməsi. Sənəddə düzbucaqlı formasındakı qara möhürün içindəki yazı paqspa yazısı ilə *gei* kimi oxuna bilər. Əgər bu ehtimal doğrudursa, sənəd paqspa yazısının yaradıldığı 1269-cu ildən sonra yazılmışdır (Matsui 2007: 66). Onun göstərdiyi xüsusiyyətlər monqol hakimiyyəti dövrünə aid uyğur mətnlərində müşahidə olunur.

Sənədin yazılma məqsədi və növü də mübahisə doğurur. D.Matsuinin fikrincə, sənəd məzmun cəhətdən müqavilələrə oxşasa da, onlardan fərqli olaraq tarix sənədin əvvəlində yox, sonunda göstərilmişdir. Bu, çox güman ki, onun müqavilə olmadığını göstərir (Matsui 2007: 66).

O, əvvəlcə sənədin sonundakı *ıdtım* "göndərdim" ifadəsinə əsasən onu məktub hesab etmişdir, lakin sonra qeyd etmişdir ki, uyğur məktublarda az hallarda tarix məktubun sonunda verilir. Tarixi sonda verilən sənədlər əhalinin siyahıya alınması, rəsmi şəxslərin uyğur hökmdarına göndərdiyi sənədlər və vergidən azad olma haqqında fərmanlardır. D.Matsuinin son qənaətinə görə, bu mətn rəsmi və ya inzibati sənəddir, yaxud bəlkə də, Sıkapdakı becərilən torpaqlarda üstünlüklər (soyurqal) vermək haqqında fərmandır (Matsui 2007: 67).

Beləliklə, sənəd dövrümüzə qədər gəlib çatmış bir çox qədim uyğur sənədi kimi Yuan dövründə yazılmışdır. D.Matsui onun təyinatı barədə müxtəlif ehtimallar irəli sürsə də, onun yazılma məqsədi haqqında qəti fikir söyləməkdə çətinlik çəkir.

6. Yapon alimlərin digər ölkələrin tədqiqatçıları ilə birgə fəaliyyəti

Yapon alimləri başqa ölkələrin tədqiqatçıları ilə də birgə fəaliyyət göstərmişlər. Bu əməkdaşlığın nəticələrindən biri "REA Şərqşünaslıq İnstitutunun Serindiya fondundakı qədim uyğur əlyazmalarının və ksiloqraflarının kataloqu"dur. Rusiya Elmlər Akademiyası Şərq Əlyazmaları İnstitutunun əməkdaşları O.Landışeva və A.Turanskaya, Toyo Bunkonun (Şərq Kitabxanasının) əməkdaşı Hiroşi Umemura tərəfindən hazırlanmış bu kataloq Toyo Bunko tərəfindən Tokioda nəşr olunmuşdur.

Kitabda Serindiya kolleksiyasındakı qədim uyğur əlyazmaları aşağıdakı başlıqlar altında qruplaşdırılmışdır:

1. Qeyri-Mahayana mətnləri;
2. Mahayana mətnləri;
3. Abhidharma mətnləri;
4. Çin apokrifləri;
5. Tantrik mətnlər;
6. Digər buddist mətnləri;
7. Elm;
8. Digər dini mətnlər;
9. Dünyəvi və hüquqi mətnlər;

10. Müxtəlif mətnlər;
11. Brahmi yazılı uyğur mətnləri;
12. Uyğur yazılı Çin mətnləri.

Bu da qədim uyğur mətnlərinin mövzuca rəngarəngliyini göstərir.

Kitabın ön sözünü Toyo Bunkonun tədqiqat şöbəsinin müdiri Takeşi Hamaşita yazmışdır.

Bu layihənin əsası 1995-ci ildə Sankt-Peterburqda Tsugitaka Sato (Toyo Bunkonun keçmiş şöbə müdiri) tərəfindən qoyulmuş, bu layihə Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Sankt-Peterburq filialı ilə birgə həyata keçirilmişdir (Catalogue, 2021: VI). Kitabın hazırlanmasında Takao Moriyasu, Cuten Oda, Dai Matsui, Koiçi Kitsudo və Akihito Yoşidanın da xidmətləri olmuşdur (Catalogue, 2021: XXIII).

Qədim uyğur abidələri bu kolleksiyada üstünlük təşkil edir: "Serindiya kolleksiyasının 4730 nümunədən ibarət böyük hissəsi qədim türk və ya qədim uyğur dili adlandırılan dildə yazılmış kitab fraqmentləridir (Catalogue, 2021: XXV). Kolleksiyada "Xuastuanift", "Dişastvustik", "Avalokitesvarasutra", "Suvarnaprabhasasottamasutra", "Dasakarmapathavadanamala", "Abitaki sutra" kimi qədim uyğur abidələri var. "Dasakarmapathavadanamala"nı Liliya Y. Tuquşeva Masahiro Şoqaito ilə birlikdə nəşr etdirmişdir. Buradakı qədim uyğur mətnlərinin müəyyənləşdirilməsi ilə yapon alimlərindən M.Şoqaito, C.Oda, D.Matsui, T.Moriyasu, H.Umemura və K.Kitsudo məşğul olmuşlar (Catalogue, 2021: XXXV).

Buradakı uyğur mətnlərinin ilkin siyahısı 2020-ci ildə H.Umemura, M.Şoqaito, Yutaka Yoşida və A.Yakup tərəfindən çap olunmuşdur: "A Provisional Catalogue of the Microfilms of Uigur, Sogdian and Manichaean Manuscripts belonging to the St. Petersburg Branch of the Institute of Oriental Stuides, Russian Academy of Sciences brought to the Toyo Bunko" ("Rusiya Elmlər Akademiyasının Sankt-Peterburq filialına məxsus olan və Toyo Bunkoya gətirilmiş uyğur, soqd və manixey əlyazmalarının mikrofilmlərinin müvəqqəti kataloqu" (Catalogue, 2021: XXXV-XXXVI).

Kataloqda adı çəkilən əsərlərin nəşri haqında da məlumat verilir. Buradakı məlumatlara görə, yapon tədqiqatçılar aşağıdakı abidələri nəşr etdirmişlər: M.Şoqaito – "Aqamalar", "Buddhavatamsakasutra", "Vajraccedika-prajnaparamita-sutra", Abhidharma mətnləri, "Da cheng fa yuan yilin zhang" ("Mahayananın dharma bağındakı mənalar meşəsi haqqında esselər"), "Ci bei dao chang chan fa" – "Kşanti kılğuluk nom" ("Böyük mərhəmətin tövbə ritualı sutrası"), "Fo shuo tiaan di ba yang shen zhou jing" – "Səkiz yükmək yaruk" ("Göyün və yerin və budda tərəfindən izah olunmuş səkkiz yanqın ilahi tilsimi"), "Da sheng fa yuan yilin zhang" ("Mahayananın dharma bağının mənalar meşəsi haqqında fəsillər"), buddist şeirlər, 千字文 "Qian zi wen" ("Min işarə essesi"), Mutsumi Suqahara – "Aqamalar", İşihama – "Buddhavatamsakasutra", Koiçi Kitsudo – "Buddhavatamsakasutra", "Shan e yin guo jing" ("Yaxşılıq və pisliyin səbəbləri və nəticələri sutrası"), "Jin gang jing zuan" ("Almaz sutra"), Cuten Oda – "Buddhavatamsakasutra", "Fo shuo tiaan di ba yang shen zhou jing" – "Səkiz yükmək yaruk" ("Göyün və yerin və budda tərəfindən izah olunmuş səkkiz yanqın ilahi tilsimi"), buddist şeirlər, borc müqavilələri, Toru Haneda və Masao Mori – "Fo shuo tiaan di ba yang shen zhou jing" – "Səkiz yükmək yaruk" ("Göyün və yerin və budda tərəfindən izah olunmuş səkkiz yanqın ilahi tilsimi"), Hiroşi Umemura – 千字文 "Qian zi wen" ("Min işarə essesi"), rəsmi fərmanlar, borc müqavilələri, hesab qeydləri, Takao Moriyasu – manixey mətnləri, rəsmi fərmanlar, borc müqavilələri, məktublar, Dai Matsui – rəsmi fərmanlar, borc

müqavilələri, məktublar, Hiroşi Ono: rəsmi fərmanlar, Nobuo Yamada – rəsmi fərmanlar, borc müqavilələri.

Yuxarıdakı məlumatlar göstərir ki, yapon alimlərinin bir çoxu Serindiya fondundakı qədim uyğur abidələrinin nəşri və tədqiqi ilə məşğul olurlar. Onların nəşr etdirdikləri abidələr arasında həm dini, həm də dünyəvi mövzulu mətnlər var.

7. Koiçi Kitsudo və Piter Zimenin tədqiqatında "Jin'gangjing zuan"ın qədim uyğur versiyası

Yaponiyalı tədqiqatçıların nəşr və tərcümə etdiyi əsərlərin bir qismi adətən tədqiqata cəlb edilməyən, yaxud nəşr olunmayan abidələrdir. Çin dilində "Jin'gangjing zuan" adlandırılan abidənin qədim uyğur dilinə tərcüməsinə həsr olunmuş bir araşdırmanı alman tədqiqatçı Piter Zime ilə birlikdə yapon tədqiqatçı Koiçi Kitsudo aparmışdır. Burada həm mətnin orijinalı, həm də qədim türk dilinə tərcüməsi haqqında məlumat verilir.

"Jin'gangjing zuan" buddizmin məşhur "Almaz sutrası"nın qısaldılmış formasıdır. Bir qız haqqında möcüzəvi hekayə, On bayram günü və On iki təqvim günü haqqındadır. İndiyə kimi onun Çin və tanqut versiyaları çap olunmuşdur. Qədim uyğur fraqmentləri Sankt-Peterburq və Berlində saxlanılır (Kitsudo and Zieme, 2017: 43). "Almaz sutrası" uyğurlar arasında çox məşhur olmuşdur. Onlar "Almaz sutrası"nın nəinki özünü, həmçinin onun gāthā-larla, yəni dini şeir nümunələri ilə olan versiyasını da tərcümə etmişlər (Kitsudo and Zieme, 2017: 43-44). "Jin'gangjing zuan" apokrif (uydurma, sanskrit kanonunda olmayan) Çin buddist mətnlərindən biridir.

K.Kitsudo və P.Zime əsərin müxtəlif variantlarını nəzərdən keçirmiş və bu nəticəyə gəlmişlər ki, qədim uyğur mətni daha çox tanqut variantına uyğun gəlir. Onların fikrincə, həm qədim uyğur, həm də tanqut variantları dövrümüzə çatmamış bir Çin mətnindən tərcümə olunmuşdur. Əldə olan Çin variantı isə başqa bir mətndir. Onlar qədim uyğur mətnini bərpa etmək üçün tanqut variantından istifadə etməyi qarşıya məqsəd qoyurlar (Kitsudo and Zime, 2017: 44). Bu oxşarlığın göstəricilərindən biri də on bayram günü haqqında olan gāthā-ların yalnız tanqut və qədim uyğur variantlarında olmasıdır. On iki təqvim günü haqqında olan hissə isə qədim uyğur variantında yoxdur. K.Kitsudo və P.Zimeyə göyə, əsərin tam variantında onlar da mövcud olmuşdur: "Qədim uyğur mətnində On iki ibadət günü olmasa da, onun gələcəkdə tapılacağını gözləyirik" (Kitsudo and Zieme, 2017: 83).

Qədim uyğur mətninin fraqmentləri müxtəlif əlyazmalara aiddir:

1) Sanskt-Peterburq əlyazmaları 4 əlyazmadan ibarətdir. Turfan hövzəsindən tapılmışdır. Onlar qarmon kimi bağlanmış eyni bir əlyazmanın qalıqlarıdır. Bunların çox kiçik ölçüsü tanqut kitabçalarının ölçüsünə uyğundur.

2) Berlin əlyazması I (qarmon bağlaması). Murtukdan tapılmış 3 fraqmentdən ibarətdir. 12-19 rəqəmləri ilə nömrələnmiş 8 səhifədən ibarətdir. Bu əlyazmada yalnız II hissə – Boddhisatva Kşitaqarbanın On bayram günü haqqında fraqmentləri var.

3) Berlin əlyazması II (rulon). Buraya eyni kitabdan olan 2 fraqment aiddir. Bu fraqmentlərdə əsərin qədim uyğurca adı verilmişdir.

4) Berlin əlyazması III. Bu da rulonun bir hissəsidir. Bəzi hissələr yuxarıdakı ilə üst-üstə düşür, ona görə də eyni əlyazmaya aid ola bilməz.

5) Berlin əlyazması IV (pustaka). Bir fraqmentdən ibarətdir (Kitsudo and Zieme, 2017: 51-59).

Əlyazmalar haqqında dəqiq məlumatların verilməsi tədqiqatçıların nəzərdən keçirdikləri və nəşr etdikləri əsərə olan diqqətli yanaşmasının göstəricisidir. Xüsusən bəzi əlyazmalardakı mətnlərin digərləri ilə üst-üstə düşməsinə əsasən həmin fraqmentlərin başqa bir nüsxəyə aid olduğunun müəyyənləşdirilməsi diqqətəlayiqdir. Bu fakt göstərir ki, qədim uyğurlar bir neçə dəfə əsərin üzünü köçürmüşlər, yəni əsər onlar arasında geniş yayılmış və oxunmuş, bu da onun müxtəlif nüsxələrinin hazırlanmasına ehtiyac yaratmışdır.

Mətn 3 bölməyə ayrılmışdır. Asan başa düşülməsi üçün hər bölmə bayram günlərinə əsasən və ya məzmuna görə hissələrə bölünmüşdür (Kitsudo and Zieme, 2017: 60).

Əsərin müxtəlif əlyazma nüsxələrində onun adının fərqli verilməsi də müşahidə olunur. Qədim uyğur versiyasının adı əlyazmalardan birində "Kimkoki sudurnuŋ əvdiməsi" ("Jin'gangjin toplusu"), digərində isə "Kimkoki sudurnuŋ kavırası" kimi verilmişdir (Kitsudo and Zieme, 2017: 83). Hər iki ad eyni mənalıdır. Bəlkə də, həmin əlyazmalar müxtəlif tərcümələrə aiddir, qədim uyğurlar əsəri bir yox, bir neçə dəfə tərcümə etmişlər. Belə xüsusiyyət müxtəlif qədim uyğur abidələrində müşahidə olunur.

8. Nəticə

Yaponiyada qədim türk abidələrinin öyrənilməsində qədim uyğur abidələri əsas yer tutmuşdur. Buna təkan verən amillərdən biri də həmin əlyazmaların bir qisminin Kiotoda saxlanmasıdır. Müxtəlif qədim uyğur abidələrini nəşr etdirən yapon tədqiqatçılar onları araşdırmış, orijinalları ilə müqayisə etmiş, yazılma tarixi və nüsxələrini müəyyənləşdirməyə çalışmışlar. Onlar Rusiya, Almaniya və d. ölkələrin tədqiqatçıları ilə birgə də çalışmışlar. Yapon alimlərinin nəşr etdirdiyi əsərlərə buddizm məzmunlu abidələr, rəsmi-işgüzar sənədlər və s. daxildir. Buraya hətta qədim uyğur əlifbası ilə yazılmış çindilli mətnlər də daxildir. Bu tədqiqatlarda irəli sürülən fikirlər qədim uyğur abidələrinin öyrənilməsi üçün əhəmiyyətlidir.

Ədəbiyyat

Каталог древнеуйгурских рукописей и ксилографов Сериндийского фонда Института восточных рукописей РАН. Том 1. (2021). Токио: Тоё Бунко. / *Catalogue of the Old Uyghur Manuscripts and Blockprints in the Serindia Collection. Volume 1.* (2021). Compiled by Olga Landysheva, Anna Turanskaya, Hiroshi Umemura. Edited by Peter Zieme. Tokyo: The Toyo Bunko.

Kitsudō, K. and Zieme, P. (2017). "The Jin'gangjing Zuan 金剛經纂 in Old Uighur with parallels in Tangut and Chinese", *Written Monuments of the Orient*, 2, pp. 43-87.

Matsui, D. (2007). "An Uigur Document Preserved in the library of Istanbul University", *内陸アジア言語の研究*, 22, p.61-70.

Moriyasu, T. (1982). "An Uigur Buddhist's letter of the Yüan Dynasty from Tun-huang 敦煌 (Supplement to "Uigurica from Tun-huang)", *The Memoirs of the Toyo Bunko*, 40, pp. 1-18.

Juten, O. (2012). "Uighur fragments of the block-printed text "Säkiz törlügin yarumïš yaltrïmïš nom bitig", *Türk dili ve debiyatı dergisi*, № 24, pp. 325-346.

Shōgaito, M. (2012). "Two fragments of Chinese Mañjuśrīnāmasamgītī transcribed into Uighur script: *Дх*-12114 and *Дх*-12082 preserved in St.Petersburg", *Тангуты в Центральной Азии. Сборник статей в честь 80-летия профессора Е.И.Кычанова.* Москва: Восточная литература, с. 375-382.

Uçar, E. (2017). "Juten ODA. A Study of the Buddhist Sūtra called Säkiz Yükmäk Yaruq or Säkiz Törlügin Yarumïš Yaltrïmïš in Old Turkic, Berliner Turfantexte XXXIII, Brepols Publishers, Turnhout (Belgium), 2015, 319 pp. ISBN: 978-2-503-56540-8.", *Journal of Old Turkic Studies*, 1/2, pp. 245-250.